# Möhtəşəmliyi ilə tarixə düşən musiqi bayramı

## IX Qəbələ Beynəlxalq Musiqi Festivalı

*Qəbələ növbəti dəfə iyulun 29-dan avqustun 3-dək Heydər Əliyev Fondunun möhtəşəm layihəsi olan beynəlxalq musiqi festivalına ev sahibliyi edib.*

*2009-cu ildən başlayaraq hər il keçirilən və bu il sayca 9-cu olan festival əsasən klassik musiqi sevənlər üçün nəzərdə tutulub. Bununla yanaşı, konsertlərdə muğam və caz ifaçıları da iştirak ediblər. Festivalın Qəbələ şəhərində keçirilməsinə baxmayaraq, İsmayıllı və Şəki şəhərlərində də musiqi proqramı təşkil olunub.*

*Azərbaycandan və xarici ölkələrdən görkəmli musiqiçilərin, musiqi kollektivlərinin, solistlərin və dirijorların qatıldığı musiqi bayramında hər gün Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kamera, Dövlət Akademik Opera və Balet Teatrının simfonik, İngiltərənin "Femusa" kamera orkestrlərinin və digər qrupların bir-birindən maraqlı çıxışları olub.*

*Respublikanın tanınmış musiqiçiləri, eləcə də İsrail, ABŞ, İtaliya, Sloveniya, Litva və digər ölkələrin vertioz ifaçıları klassik musiqi sevənlər üçün əsl bayram təntənəsi yaşadıb.*





## IX Qəbələ Beynəlxalq Musiqi Festivalının ilk konserti

Hər kəsi öz sehrinə salan Qəbələ yenidən musiqisevərləri öz qoynuna toplayıb. Heydər Əliyev Fondunun təşkilatçılığı, Mədəniyyət və Turizm Nazirliyinin, "Gilan Holdinq"in dəstəyi ilə Qəbələdə keçirilən IX Beynəlxalq Musiqi Festivalının ilk konserti gənclərin ifası ilə tarixə düşüb.

İyulun 29-da Heydər Əliyev Konqres Mərkəzinin zalında Azərbaycanın tanınmış gənc pianoçularının və musiqiçilərin iştirakı ilə ilk konsert olub. "Gənclərə dəstək" adlı bu konsertdə səhnə gənc musiqiçilərin ixtiyarına verilib.

Xalq Artisti Şükür Səmədovun təşəbbüsü ilə 2016-cı ildə yaradılan "Clarte" klarnet kvartetinin çıxışı da maraqla qarşılanıb. Musiqiçilər Avropa və Azərbaycan bəstəkarlarının əsərlərini səsləndiriblər.

## Tələbə Simfonik Orkestrinin möhtəşəm konserti

İyulun 29-da Heydər Əliyev Konqres Mərkəzinin qarşısındakı parkda tələbə simfonik orkestrinin konserti olub.

Konsertin dirijoru "Oazis" Simli Kvartetinin və "Ad libitum" antrepriz ansamblının banisi, beynəlxalq müsabiqələr laureatı, "Baku Simfonietta" orkestrinin bədii rəhbəri və baş dirijoru Cavad Tağızadə olub. Məlumat verilib ki, Cavad Tağızadənin rəhbərliyi ilə yaradılan tələbə simfonik orkestri Bakı Musiqi Akademiyasında "İfaçılıq" fakültəsi yaranan gündən fəaliyyət göstərir. Orkestrin konsertində C.Qerşvinin "Mavi rapsodiya", S.Hacıbəyovun "Karvan" simfonik lövhələri, K.Əkbərovun "Qafqaz əfsanələri" əsərləri səsləndirilib.





## «Furioso» kvartetinin konserti

Azərbaycan, Rusiya, İsrail, ABŞ, İtaliya, Litva və Sloveniyadan dünya şöhrətli dirijorların, görkəmli musiqiçilərin, bədii kollektivlərin və solistlərin iştirak etdikləri IX Qəbələ Beynəlxalq Musiqi Festivalında səsləndirilən Azərbaycan və Avropa bəstəkarlarının əsərləri böyük tamaşaçı marağına səbəb olub. Festival günlərində Qəbələdə böyük izdiham yaşanıb. Bu beynəlxalq musiqi bayramının proqramına uyğun olaraq iyulun 30-da Qəbələ şəhərindəki Heydər Əliyev Konqres Mərkəzinin kamera zalında Azərbaycanın tanınmış gənc pianoçularının və musiqiçilərinin iştirakı ilə kamera konserti olub.

Həmçinin "Furioso" kvartetinin musiqisevərlər üçün konserti də böyük marağa səbəb olub. Məlumat verilib ki, "Furioso" kvarteti Bakı Musiqi Akademiyasının ifaçılıq fakültəsinin dekanı, professor Nazmiyyə Abbaszadənin rəhbərliyi ilə 2011-ci ildən fəaliyyətə başlayıb.

## IX Qəbələ Beynəlxalq Musiqi Festivalının rəsmi açılış mərasimi

*İyulun 30-da Heydər Əliyev Konqres Mərkəzinin qarşısında keçirilən festivalın rəsmi açılış mərasimində əvvəlcə ölkəmizdə musiqi mədəniyyətinin inkişafında və təbliğində müstəsna rol oynayan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri xanım Mehriban Əliyevanın festival iştirakçılarına təbrik məktubu oxunub.*



*Sonra Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının Simfonik Orkestrinin konserti başlayıb. Konsertdə dahi bəstəkar Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operası ifa olunub. Orkestri Bakı Musiqi Akademiyasının professoru, əməkdar incəsənət xadimi, xalq artisti, dirijor Cavanşir Cəfərov müşayiət edib.*

*Zamanın süzgəcindən keçərək öz aktuallığını qoruyub saxlayan "Leyli və Məcnun" operası tamaşaçıların sürəkli alqışları ilə qarşılanıb.*